AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpnews.az
www.olimpiyadunyasi.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№61 (1331), 10 - 12 oktyabr 2017-ci il*

*Qəzet 2001-ci ildən çıxır.*

## Azərbaycan Gimnastika Federasiyası 15 illik yubileyini qeyd edir

Azərbaycan Gimnastika Federasiyasının (AGF) yaranmasından 15 il ötür. AGF-nin 2002-ci il oktyabrın 7-də keçirilən təsis konfransında ölkənin birinci xanımı, Heydər Əliyev adına Fondun rəhbəri Mehriban xanım Əliyevanın federasiyanın prezidenti seçildi. Bununla həm də federasiyanın yenidən qurulması təsdiqləndi. İlk dövrdə AGF-in fəaliyyəti əsasən bədii gimnastika, kişi idman gimnastikası, tamblinq və akrobatika gimnastikasını əhatə edirdi.

Mehriban Əliyevanın federasiyanın prezidenti seçilməsi idmanın bu növünün ölkəmizdə sürətli inkişafına və mühüm uğurların qazanılmasına imkan verib. İlk uğurlar özünü çox gözlətməyib. Təsis konfransından bir neçə ay sonra - 2003-cü ilin avqustunda Bakıda ilk dəfə bədii gimnastika üzrə Dünya kuboku mərhələsi təşkil olunub. Sentyabrda isə Azərbaycanın bədii gimnastika tarixində ilk Olimpiya lisenziyası əldə edilib. Lisenziyanı Budapeştdə keçirilən 26-cı dünya çempionatında Dinara Gimatova qazanıb. Sonra uğurlar bir-birini əvəz edib. 2004-cü ilin aprelində Bakıda ikinci dəfə bədii gimnastika üzrə Dünya kuboku mərhələsi təşkil edilib. Afina-2004 Olimpiadasında ölkəmiz gimnastika idman növündə ilk dəfə təmsil olunub. Anna Qurbanova bədii gimnastika üzrə yarışlarda mübarizə aparıb.

*(ardı 2-ci səhifədə)*



## Cüdoçularımız Daşkənddə üç medal qazandılar

Özbəkistanın paytaxtı Daşkənddə keçirilən cüdo üzrə Qran-pri yarışına yekun vurulub. 27 ölkədən 183 (91 kişi və 92 qadın) idmançının mübarizə apardığı yarışda Azərbaycan cüdoçuları da qüvvəsini sınayıblar. Komandamız yarışda 5 cüdoçu ilə təmsil olunub.

Beynəlxalq turnirin ikinci günündə millimiz daha iki medal qazanıb.

Təmsilçilərimizdən Telman Vəliyev (73 kq) və Fəqan Quluzadə (81 kq) bürünc medala sahib olub.

Yarışın ilk günündə millimiz aktivinə bir medal yazdırıb. 60 kq çəki dərəcəsində ölkəmizi təmsil edən Vüqar Şirinli finaladək Tacikistan və Özbəkistan təmsilçilərinə qalib gəlib. Həlledici görüşdə isə rusiyalı İslam Yaşuyev üzərində qələbə qazanan Vüqar qızıl medala layiq görülüb.




## Dohada dünya kuboku mərhələsinə yekun vurulub

Azərbaycan üzgüçüsü Maksim Şemberev Qətərin paytaxtı Dohada keçirilən üzgüçülük üzrə dünya kubokunu mərhələsinin qalibi olub.

Təmsilçimiz 400 metr məsafəyə kompleks üsulla üzmə yarışında 4.06,72 dəqiqəlik nəticə göstərərək finişə birinci çatıb.

Fatimə Əlkərəmova isə 800 metrlik məsafəyə sərbəst üsulla üzmə yarışında beşinci olub.

## Boksçularımız Avropa birinciliyinə hazırlaşırlar

## Dünya Robot Olimpiadasının seçim yarışının qalibləri mükafatlandırılıblar

## Yığmamızın üzvü Avropa kubokunun gümüş medalını qazanıb

## Ən yaxşı nəticəni qadın təmsilçimiz göstərib

## *Olimpiya mükafatçımız haqqında film çəkildi*

Səh. 2

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU**

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

## *Bədən tərbiyəsi insanın mədəni fəaliyyətinin bir sahəsidir*

Səh. 3

## Finalda 45 ölkədən 162 idmançı yarışacaq

Oktyabrın 23-də Hindistanda güllə atıcılığı üzrə dünya kuboku yarışlarının final mərhələsi başlayacaq. Final mərhələsində 45 ölkədən 162 idmançı hədəfi nişan alacaq. Yeni Dehlidə yeddi gün davam edəcək yarışda Azərbaycan da təmsil olunacaq. Yarışda ölkəmizin idman şərəfini Ruslan Lunyov qoruyacaq. O, 25 metr məsafədən atəşaçma yarışlarında dəqiqliyini yoxlayacaq.



# Olimpizm

## *BOK Tokio-2020 Olimpiadasının xərclərini azaltmaq niyyətindədir*

Beynəlxalq Olimpiya Komitəsi (BOK) 2020-ci ildə Yaponiyanın Tokio şəhərində keçiriləcək XXXII Yay Olimpiya Oyunlarının keçirilməsinə sərf olunacaq xərclərin həcmini 12 milyard dollardan 11 milyard dollara endirmək fikrindədir.




BOK-un vitse prezidenti Con Kouts xərclərin azaldılması barədə beynəlxalq qurumun nümayəndələri ilə Tokio-2020 Təşkilat Komitəsi arasında razılaşma olduğunu diqqətə çatdırıb.

Əvvəl xəbər verildiyi kimi, Tokio-2020 Olimpiadasının 29,5 milyard dollara başa gələcəyi deyilirdi. Lakin 2016-cı ilin oktyabrında MOK-un prezidenti Tomas Tokio şəhərinin qubernatoru Yuriko Koike ilə söhbətində xərclərin azaldılması ilə bağlı işçi komissiyasının yaradılması barədə təkliflə çıxış edib.

Qeyd edək ki, Tokio-2020 Yay Olimpiya Oyunları iyulun 24-dən avqustun 9-a qədər keçiriləcək.

## *Razılaşma imzalanıb*

Yaponiya Antidopinq Agentliyi Tokio-2020 Yay Olimpiya və Paralimpiya Oyunlarının iştirakçılarını dopinq testindən keçirəcək. Bu barədə "İnside the Games" Agentliyi xəbər yayıb.

Müvafiq razılaşma Yaponiya Antodopinq Agentliyi ilə Tokio-2020 Təşkilat Komitəsi arasında imzalanıb. Dopinq agentliyi Təşkilat Komitəsinə idmançıların testdən keçirilməsi zamanı operativ yardım göstərəcək. Agentlik həm də dopinq üzrə mütəxəssislərin attestasiyasını da həyata keçirəcək.

Məlumat üçün bildirək ki, Yaponiya Olimpiya Oyunlarına iki dəfə ev sahibliyi edib. 1964-cü ildə "gündoğar" ölkənin Tokio şəhərində yay, 1998-ci ildə isə Naqano şəhərində qış Olimpiya Oyunları keçirilib. Paytaxt Tokio 2020-ci ildə XXXII Yay Olimpiya Oyunlarını qəbul edəcək.

## *Beynəlxalq federasiya yeni qayda təklif edib*

Beynəlxalq Hokkey Federasiyası (BHF) məşqçilərə Pxençxan-2018 Qış Olimpiya Oyunlarında oyun zamanı mübahisəli epizodların videosunu tələb etməyə icazə verib. Bu barədə qərar Beynəlxalq Hokkey Federasiyasının Marbeldə keçirilən konqresində qəbul edilib. Məsələyə beynəlxalq qurumun prezidenti Rene Fazel də münasibət bildirib: "Biz bu qaydanın qəbul olunduğu liqalarla məsləhətləşmələr aparacağıq. Onun harada daha yaxşı özünü təsdiq etdiyinə baxacağıq. Biz bu qaydanı olimpiadadan əvvəl keçirilən matçlarda sınaqdan keçirəcəyik".



# Azərbaycan Gimnastika Federasiyası 15 illik yubileyini qeyd edir





*(əvvəli 1-ci səhifədə)*

2005-ci il Azərbaycan Gimnastika Federasiyasının tarixində xüsusilə əlamətdar il olub. Bakıda üçüncü dəfə "A" seriyasına aid bədii gimnastika üzrə Dünya kuboku keçirilib və ölkəmiz müstəqil Azərbaycanın tarixində ilk dəfə bədii gimnastika üzrə 27-ci dünya çempionatına ev sahibliyi edib. 2006-cı ildə Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın yenidən AGF-in prezidenti seçilməsi idmanın bu növünün inkişafında və federasiyanın fəaliyyətində yeni mərhələnin başlanmasına təkan verib. Bu mərhələdə Azərbaycan gimnastika idman növü üzrə nailiyyətlər əldə etməklə yanaşı, mötəbər tədbirlərə ev sahibliyi edib. 2007-ci ildə Bakıda ilk dəfə kişi idman gimnastikası üzrə beynəlxalq hakimlik kursları, Bakıda ilk dəfə olaraq, bədii gimnastika üzrə 23-cü Avropa çempionatı təşkil olunub. Bu çempionatda gimnastımız Aliyə Qarayeva qızıl medal qazanıb. Gimnastlarımız komanda yarışında da uğur qazanaraq, mötəbər turniri bürünc medalla başa vurublar. Bu uğuru davam etdirən bədii gimnastlarımız 28-ci dünya çempionatında da komanda hesabında üçüncü yeri tutublar. Bu nailiyyətlə də milli komandamız Pekin-2008 Olimpiya Oyunlarına maksimal sayda lisenziyanı təmin edib. 2007-ci il AGF üçün daha bir uğurla da yadda qalıb. Gənclər və İdman Nazirliyinin nominasiyasında ilin idman yekunlarına əsasən, Azərbaycanın qrup hərəkətləri komandası ilin ən yaxşı komandası elan olunub.

2009-cu ildə Bakının ev sahibliyi ilə ikinci dəfə bədii gimnastika üzrə 25-ci Avropa çempionatı keçirilib. Bakıda təşkil olunan bədii gimnastika üzrə Avropa çempionatında komanda hesabında iki gümüş, fərdi yarışlarda isə bir bürünc medal qazanılıb. Azərbaycanın bədii gimnaslarının Avropa çempionatında ilk medalı 2010-cu ildə əldə olunub. Bremendə keçirilən 26-cı Avropa çempionatında Aliyə Qarayeva çoxnövçülük yarışında bürünc medala sahib olub. Həmin çempionatda gimnastlarımız əlavə olaraq gümüş və bürünc medala layiq görülüblər.

2014-cü ildə istifadəyə verilən Milli Gimnastika Arenası (MGA) Azərbaycanda gimnastikanın inkişafında növbəti mühüm addım olub. Gimnastikanın bütün 6 yarış növü üzrə turnirlərin ən yüksək səviyyədə keçirilməsi üçün hər cür şəraitin yaradıldığı bu möhtəşəm arena mötəbər beynəlxalq yarışlara uğurla ev sahibliyi edir. Milli Gimnastika Arenası öz möhtəşəmliyi ilə təkcə təlim-məşq toplanışına və yarışlara gələn gimnastları deyil, həmçinin müxtəlif ölkələrdən olan idman həvəskarlarını da valeh edir.

2015-ci il AGF üçün xüsusilə əlamətdar olub. Azərbaycan gimnastları Bakıda keçirilən birinci Avropa Oyunlarının proqramına daxil olan gimnastikanın bütün altı növü üzrə yarışlarda uğurla mübarizə aparıblar. Oyunlarda Azərbaycan gimnastları ümumilikdə 7 medal qazanıblar. AGF-in prezidenti, Azərbaycanın birinci xanımı, Bakı-2015 Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanın dövlətimizin başçısının Sərəncamı ilə "Heydər Əliyev" ordeni ilə təltif edilməsi bu uğurların təntənəsi olub. Gimnastika üzrə əldə olunmuş nailiyyətlərə görə, həmçinin AGF-in vitse-prezidenti Altay Həsənov "Şöhrət" ordeni, Avropa Oyunlarında 5 medal qazanan Oleq Stepko "Şöhrət" ordeni, dörd idmançı "Tərəqqi" medalı, bir neçə məşqçi isə Azərbaycan Prezidentinin fəxri diplomu ilə təltif ediliblər. Bu, Azərbaycan Prezidentinin ölkəmizdə gimnastikanın inkişafına göstərdiyi yüksək diqqət və qayğının növbəti nümunəsi idi.

2016-cı ildə Azərbaycan Gimnastika Federasiyasının prezidenti xanım Mehriban Əliyevanın Avropada idmanın inkişafı və Olimpiya Hərəkatına verdiyi töhfəyə görə Avropa Olimpiya Komitələrinin ən yüksək mükafatı olan "Ali Ordeni" ilə təltif olunması AGF prezidentinin beynəlxalq miqyasda fəaliyyətinə verilən yüksək qiyməti ifadə edirdi.

AGF-in uğurları bu ildə də davam etdirilib. Mart ayında Azərbaycan Gimnastika Federasiyası 3 il ərzində ardıcıl olaraq Beynəlxalq Gimnastika Federasiyası (FIG) tərəfindən mükafata layiq görülən federasiyaların reytinq siyahısına daxil olub. Federasiyanın prezidenti, Azərbaycan Respublikasının birinci vitse-prezidenti xanım Mehriban Əliyeva Olimpiya idman növü olan gimnastikanın inkişafındakı böyük xidmətlərinə görə Beynəlxalq Gimnastika Federasiyasının yüksək mükafatı ilə təltif edilib.

Bu ilin mayında Bakıda keçirilən IV İslam Həmrəyliyi Oyunlarında Azərbaycan gimnastları bədii gimnastika, kişi və qadın idman gimnastikası üzrə yarışlarda ümumilikdə 20 medal (9 qızıl, 7 gümüş və 4 bürünc) qazanıblar. Bu, gimnastlarımızın bir turnirdə əldə etdikləri medal sayına görə rekord göstəricidir.

Azərbaycan gimnastlarının Avropa və dünya çempionatlarında əldə etdikləri nəticələr, gimnastlarımızın Olimpiya Oyunlarında iştirakı, Bakıda UEG (Avropa Gimnastika İttifaqı) və FIG-nin irimiqyaslı yarışlarının təşkili, bu strukturların rəhbər orqanlarına AGF nümayəndələrinin seçilməsi, 2002-ci ildə gimnastikanın dirçəlişindən bu günə qədər olan məqsədyönlü nəticəsidir. Əldə olunan nailiyyətlər, qazanılan uğurlar onu deməyə əsas verir ki, AGF-nin prezidenti, Azərbaycanın birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın ötən 15 il ərzində federasiyaya rəhbərliyi, səmərəli fəaliyyəti ölkəmizdə gimnastikanın dinamik inkişafı, idmanın bu növünün kütləviliyinin artırılması, bölgələrdə ən müasir idman mərkəzlərinin yaradılması, beynəlxalq aləmdə parlaq nailiyyətlərlə müşahidə olunur. Yuxarıda deyilənlər qarşıdakı illərdə daha yüksək nailiyyətlərin əldə olunmasına güclü inam və zəmin yaradır.

# Boksçularımız Avropa birinciliyinə hazırlaşırlar



Gənclərdən ibarət boks üzrə Azərbaycan yığması Avropa birinciliyinə hazırlığını davam etdirir. Baş məşqçi Vaqif Şirinovun rəhbərlik etdiyi komanda təlim-məşq toplanışının son hissəsini Boks Mərkəzində keçir. Nalçik şəhərində təşkil olunmuş beynəlxalq turnirdə ikinci yeri tutan millimiz plana uyğun olaraq gündə 2 və ya 3 məşqə çıxır. Vaqif Şirinovun sözlərinə görə, təlim-məşq toplanışında əsasən son aylarda beynəlxalq turnirlərdə təcrübə toplayan boksçular iştirak edirlər: "Təlim-məşq toplanışımız yüksək səviyyədə keçir. Yarışa az vaxt qaldığından hazırlığı daha da gücləndirmişik. Komandamızda gözəl ab-hava var. Məşqlər üçün lazım olan bütün şərait yaradılıb. Hazırlıqda 20 boksçu iştirak edir. Sınaq döyüşləri üçün Rusiyadan da idmançılar çağırmışıq. Həmçinin kişilərdən ibarət millinin və "Qəbələ"nin üzvləri də bəzən bizimlə məşq edir, gənclərlə öz təcrübələrini bölüşürlər. Yarışa aparılacaq heyət demək olar ki, məlumdur. Son sınaq döyüşlərimiz oktyabrın 13-14-də olacaq. Çünki Bolqarıstanda, Gürcüstanda və Rusiyada yarışlarda iştirakdan sonra kimin nəyə qadir olduğunu özümüz üçün müəyyənləşdirmişik. Bu səbəbdən də komandamızı birinciliyə hazır hesab edirəm".

Son mərhələ başa çatdıqdan sonra yığmamız Avropa birinciliyinin keçiriləcəyi Türkiyənin Antalya şəhərinə yollanacaq.

Qeyd edək ki, oktyabrın 21-də start götürəcək qitə birinciliyi oktyabrın 28-də başa çatacaq. Yığmamız yarışda tam heyətlə - 10 boksçu ilə təmsil olunacaq.

# Dünya Robot Olimpiadasının seçim yarışının qalibləri mükafatlandırılıblar

***Oktyabrın 7-də ölkəmizdə ilk dəfə Dünya Robot Olimpiadası üzrə seçim yarışı təşkil olunub. Yarış Gənclər və İdman Nazirliyinin dəstəyi, "Gənclərin Təhsil, Təlim, Peşə və İnkişaf Mərkəzi" İctimai Birliyinin və Azərbaycan Robototexnika Mühəndisliyi Akademiyasının (AREA) təşkilatçılığı ilə keçirilib.***

Bakı Olimpiya İdman Kompleksində keçirilən tədbirin açılış mərasimində çıxış edən gənclər və idman nazirinin müavini İntiqam Babayev yarışların gənclərimizə bilik və bacarıqlarını nümayiş etdirmək, həmkarları ilə təcrübə mübadiləsi aparmaq üçün gözəl imkan olduğunu bildirib. O, belə olimpiadaların keçirilməsinin gənclərin elmi inkişafına böyük töhfə verəcəyəni qeyd edib. Robot hazırlamağın bu gün dünyada geniş yayılmaqda olan hərəkata çevrildiyini vurğulayan İntiqam Babayev ölkəmizin də artıq bu hərəkata qoşulduğunu deyib. Olimpiadada müxtəlif təhsil ocaqlarından 25 komandanın iştirak etdiyini bildirən nazir müavini komandaların sayının gələcəkdə artacağına ümidvar olduğunu diqqətə çatdırıb.

Dünya Robot Olimpiadasının Bakıda keçirilən seçim yarışlarının baş hakimi, yaponiyalı mütəxəssis, AREA-nın həmtəsisçisi Kohe İşiqami ölkəmizdə bu sahənin inkişafı üçün uğurlu işlər aparıldığını qeyd edib. Baş hakim gənclərin bu sahədə təhsil almasının Azərbaycanın inkişafı və onların gələcəyi üçün önəmli olduğunu deyib. O, Azərbaycan gənclərinin bu sahəyə böyük həvəs göstərdiklərini və ölkəmizdə robototexnikanın inkişafı üçün hər cür şəraitin yaradıldığını vurğulayıb.



Yarış çərçivəsində hazırlanan, eləcə də Yaponiya istehsalı olan robotlardan ibarət sərgiyə baxış keçirildikdən sonra komandalar arasında mübarizəyə start verilib. Yarışda qalib gələn komandalar diplomlar və qiymətli hədiyyələrlə mükafatlandırılıb. Yarışın qalibləri cari il noyabrın 10-dan 12-dək Kosta-Rikada keçiriləcək Dünya Robototexnika Olimpiadasının finalında Azərbaycanı təmsil edəcəklər.

## *Yığmamızın üzvü Avropa kubokunun gümüş medalını qazanıb*

İspaniyanın Melilla şəhərində keçirilən triatlon üzrə Avropa kuboku yarışı başa çatıb. Azərbaycanın triatlon üzrə yığmasının üzvü Rostislav Pevstov turnirdə gümüş



medal qazanıb. Final turnirində idmançımız yeddinci olub. Triatlonçumuz 1500 metrlik su məsafəsini 21 dəqiqə 16 saniyəyə başa vurub. Ardınca isə 40 kilometr velodistansiyanı 58 dəqiqə 1 saniyə nəticə ilə qət edib. Nəhayət, yarışların son mərhələsi - 10 kilometrlik qaçış zolağını Rostislav Pevtsov 31 dəqiqə 50 saniyəyə başa vurub.

Carı mövsümdə keçirilən Avropa kuboku yarışlarının ümumi hesabında idmançımız ikinci olub və gümüş medala layiq görülüb.

Avropa kubokunun finalında digər idmançımız Kseniya Levkovskaya da iştirak edib. İdmançımız finişə 7-ci çatıb.

## *Ən yaxşı nəticəni qadın təmsilçimiz göstərib*

Kanadanın Monreal şəhərində kişi və qadın idman gimnastikası üzrə keçirilən dünya çempionatı başa çatıb. Dünya çempionatında 68 ölkəni təmsil edən idmançılar medallar uğrunda mübarizə aparıblar. Ölkəmizi bu yarışlarda Murad Ağarzayev, Bence Talas, Marina Nekrasova və Yuliya İnşına təmsil ediblər.

Təmsilçilərimizdən ən yaxşı nəticəni isə Marina Nekrasova göstərib. Qadın gimnastımız dayaqlı tullanma alətində çıxışına görə hakimlərdən 13.904 xal alıb. Marina Nekrasova dünya çempionatını 13-cü yerdə başa vurub.

## *Olimpiya mükafatçımız haqqında film çəkildi*

Olimpiya mükafatçımız, taekvondo üzrə bürünc medalın sahibi Patimat Abakarova haqqında film çəkilib. Qısametrajlı filmdə tamaşaçılara idmançı qadının incə, zərif, məlahətli ola bilməsindən söz açılır.

İdmançı film haqqında danışarkən qeyd edib ki, tamaşaçılar filmdə məni təkcə taekvondoçu kimi tanımayacaq: "Qısametrajlı filmdə çəkilməyi mənə "CBC Sport" telekanalı təklif edib. Filmin əvvəlində tamaşa-



çılar mənim idmançı kimi gündəlik işlərimlə tanış olurlar. Lakin sonrakı kadrlarda tamaşaçı məni təkcə taekvondoçu kimi tanımayacaq. Rejissorlar mənim digər bacarıqlarımdan xəbər tutublar və bunu filmdə sübut etmək lazım gəlib".

# Ölkə çempionatına start verilib

Oktyabrın 7-də həndbol üzrə XXV Azərbaycan çempionatına start verilib. Çempionatın açılış oyununda "ABU Arena"da kişilərdən ibarət "Bakı" və "Məhsul" komandaları üz-üzə gəliblər. Oyun "Məhsul" komandasının 29:24 hesablı qələbəsi ilə yekunlaşıb.

Sonra meydana qadın həndbolçular çıxıblar. "Azəryol" komandası ilə qarşılaşan "Qarabağ" klubu rəqibini minimal hesabla məğlub edib - 25:24. Daha sonra yubiley çempionatının açılış mərasimi keçirilib.

Açılış mərasimində çıxış edən Azərbaycan Həndbol Federasiyasının vitse-prezidenti Orxan Abbasov idmanın bu növü üzrə əldə edilən nailiyyətlərdən danışıb. O, ötən illərə nisbətən komandaların sayının artdığını vurğulayaraq, həndbol həvəskarlarını maraqlı çempionatın gözlədiyini bildirib.

Açılış mərasimindən sonra keçirilən günün sonuncu oyununda isə qadın həndbolçular arasında "Azərsu" və "Nur" kollektivləri mübarizə aparıblar. Gərgin və maraqlı keçən görüşdən "Azərsu" klubu 30:26 hesabı ilə qalib ayrılıb.

Çempionatın ikinci yarış günündə "ABU Arena"da iki qarşılaşma keçirilib. Kişi həndbolçular arasında mübarizədə Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbinin (RİOEUGİM) təmsilçiləri ilə qarşılaşan "Təhsil" kollektivi 38:19 hesabı ilə qalib gəlib. Qadın həndbolçuların yarışında isə "İdman Akademiyası" komandası "Gənclər Birliyi" klubundan minimal hesabla üstün olub - 27:26.



AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*"İdman, sən həmrəylik eşqi ilə alovlanıb yanan insanları bir araya gətirən dünyasan! Sən odlu-alovlu gəncliyə bir-birinə hörmət etməyi öyrədən, gələcəyimizi və ümidimizi öz sülh bayrağının altında birləşdirən qüvvəsən.*

*Pyer de Kuberten*

"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"

# Bədən tərbiyəsi insanın mədəni fəaliyyətinin bir sahəsidir

***Müasir idman və Olimpiya Hərəkatının əsas məqsədi olimpizmin etik, mədəni və tərbiyəvi dəyərlərini yaymaq və təbliğ etməkdən ibarətdir. İdman mübarizə deməkdir və olimpizm bu mübarizəni nəyin bahasına olursa olsun, qalib gəlmək meylindən qoparıb ayırır, güclünün zəif üzərindəki təntənəsinə humanist istiqamət verir. Beynəlxalq Olimpiya Hərəkatını Olimpiya Oyunları və uşaq-gənclər idmanı ilə sıx, qarşılıqlı əlaqədə olan pedaqoji sistem kimi dəyərləndirmək məqsədəuyğundur. Müasir olimpizmin banisi, uzaqgörən insan Pyer de Kuberten deyirdi: "Çoxları başa düşmürlər ki, Olimpiya Oyunları dünya çempionatı deyil, bu, dünya gənclərinin idman festivalıdır". Bir sözlə, idman yarışlarının ən möhtəşəmi və önəmlisi Olimpiya Oyunlarıdır. Olimpiya Oyunları isə, dünya gənclərinin idman festivalıdır. Bu yazıda sizə Olimpiya Oyunlarının yaranması, əhəmiyyəti, əxlaqi-etik dəyərləri və eləcə də, bu mötəbər idman tədbirinin gələcək nəslin fiziki və mənəvi inkişafında rolu haqqında danışacağıq.***




## İdman ümumbəşəri mədəniyyətin tərkib hissəsidir

Tarixi inkişafın müəyyən mərhələsində meydana gələrək Yer kürəsində yaşamağa başlayan insan özünün maddi və mənəvi tələbatını ödəmək üçün fiziki və zehni əmək prosesində müxtəlif şeylər yaratmışdır. Bu şeylər maddi və ya mənəvi dəyər daşımasından asılı olmayaraq, geniş mənada götürüldükdə, mədəniyyət kimi səciyyələndirilir. Hər bir xalqın tarixi inkişafında və onun etnik özünüdərk prosesində mədəniyyət müstəsna rol oynayır. Hansı xalq, millət tərəfindən yaradılmasına baxmayaraq elə mədəni naliyyətlər vardır ki, onlar ümumbəşəri mahiyyət kəsb edərək, həyatımıza daxil olur. İnsanların fiziki inkişaf səviyyəsini qiymətləndirmək vasitəsi kimi meydana çıxmış idman da məhz ümumbəşəri mədəniyyətin tərkib hissəsidir. Cəsarətlə demək olar ki, müxtəlif hərəkət kompleksləri üzrə yarışları özündə birləşdirən idman tarixi inkişafın ilkin mərhələsində meydana gəlmişdir. İnsanların yerinə yetirdiyi adi fiziki fəaliyyət, əmək vərdişləri ilə bağlı olan və hərbi məqsədlə istifadə olunan hərəkətlər (qaçış, tullanma, ağırlıqqaldırma, üzgüçülük, avarçəkmə, güləş, oxatma və s.) elə idmanı ifadə edir.

Qədim arxeoloji qazıntılar onu deməyə əsas verir ki, indiki Yunanıstanın ərazisində insanlar b.e.ə 3000-ci illərdə məskunlaşmağa başlamışlar. Onlar ilahə Gera və Allahlar anasının qədim əcdadı hesab edilən İlahə - Anaya səcdə edir, ibadət mərkəzlərində ənənəvi dini bayramlar zamanı müxtəlif yarışlar keçirirlərmiş. Olimpiya yarışları isə b.e.ə 2000-ci illərdə yunanların bu əraziyə gəlişindən sonra keçirilməyə başlanmışdır. Bu ən azı rəsmi şəkildə qəbul edilmiş birinci Olimpiya Oyunlarından beş əsr əvvəl baş vermişdir. Beləliklə, Pelopennes yarımadasındakı Elid vilayətinin ərazisində, Alfey çayının kənarında, İkonik dənizi sahilindən 20 km məsafədə yerləşən Olimpiya şəhəri və onun adı ilə bağlı olan Olimpiya Oyunları çoxəsrlik tarixə malikdir.

Yunan tarixində rəsmi surətdə qəbul olunmuş və b.e.ə 776 - cı ildə keçirilmiş birinci Olimpiya Oynunun Elid hökmdarı İfit tərəfindən təşkil olunması barədə faklar vardır. İfit Elid kahininin tapşırığı ilə Sparta hökmdarı Likurqla sülh müqaviləsi bağlamağa məcbur olmuşdur. Bu hadisəni təntənəli surətdə qeyd etmək üçün bayram şənlikləri və Olimpiya yarışları keçirilmişdir. Ekexeyriya adlanan sülh sazişinə görə, Olimpiya müqəddəs yer hesab olunur və hər hansı hərbi müdaxiləçi allahsız adlandırılırmış. Beləliklə, qədimdə Olimpiya Oyunları dünya bayramı kimi qeyd edilirdi. Oyunlar vaxtı bütün müharibələrə son qoyulur, tərəflər arasında müvəqqəti də olsa barışıq imzalanırdı.

Tarixi b.e.ə. 776-cı ildən hesablanan Olimpiya Oyunları dörd ildən bir yay günəş duruşu ərəfəsində təzə ay fazasının sonrakı ikinci günündən başlayıb 16-cı gündə başa çatırdı. B.e.ə. III əsrin ortalarında yunan tarixçisi Timey və riyaziyyatçı Eratosfen birinci Olimpiya Oyunlarından başlanğıcını götürən təqvimi işləyib hazırladılar. Bu təqvimə görə, hesablanmış ili hazırda istifadə olunan təqvim ilinə keçirdikdə olimpiadanın və həmin olimpiadadan sonrakı olimpiadaya qədərki dörd ilin sıra nömrəsindən istifadə olunur. Olimpiya Oyunları qədim Yunanıstanın ən seçilən və nüfuzlu bayramlarından biri sayılırdı. Yunanlarda belə bir adət var idi: onlar Olimpiya çempionlarının adlarını Alfey çayı boyunca düzülmüş mərmər sütunlara döyüb həkk edirdilər. Məhz elə bu sütunun sayəsində ilk qədim Olimpiya Oyunlarının tarixini və ilk qalibin adını müəyyən etmək mümkün olmuşdur. Bu, qalib Elidalı aşpaz Korəb olub.

Antik Yunanıstanda Olimpiya Oyunları mədəni prosesin mühüm amillərindən biri kimi və fəlsəfi və dini konsepsiyaları özündə birləşdirərək antik mədəniyyətin fenomeninə çevrilmişdi. Olimpiada gözəl bədən quruluşunu nümayiş etdirməklə yanaşı, antik ruhu da özündə əks etdirirdi. Olimpiadaların yunan mədəniyyətinin inkişafına güclü təsiri demək olar ki, bütün sferalarda hiss olunurdu. Məsələn, olimpizm ümumyunan dinini formalaşdırmış oldu. Siyasət və iqtisadiyyata gəlincə, Olimpiya Oyunları vaxtı müharibə edən tərəflər arasında atəşkəsə əməl olunması, bazar ticarətinin inkişafı qaçılmaz idi.

## "Ən çevik, ən yaxşı, ən güclü"

Müasir Olimpiya Oyunları başqa yarışlardan onunla fərqlənir ki, bu oyunlar idman, ictimai-siyasi, iqtisadi və mədəni fenomenləri özündə sıx birləşdirir. Olimpiya Oyunları həm də müxtəlif ölkə və kontinetlərdən olan gənclərin sülh, dostluq və qarşılıqlı anlaşma bayramıdır. Bu musiqidir, bu mahnı və rəqsdir, bu rəngbərəng çələngi xatırladan insan kütləsidir. Olimpiya oyunları elə bir sahədir ki, orada insanın imkan və kamilliyinin sonsuzluğu sübut olunur. Olimpiyanın devizi: "Ən çevik, ən yaxşı, ən güclü" olmaqdır. Olimpiya Oyunlarının əsas məqsədi idmanın əxlaqi-mənəvi dəyərlərinin təbliği və inkişafının təmin edilməsi, eləcə də idmanla incəsənətin əlaqəsinin möhkəmləndirilməsidir. Bir sözlə, bu yarışların keçirilməsində məqsəd cəmiyyətin sosial-mədəni problemlərinin həll edilməsinə xidmət etməkdir. Sosial-mədəni problemlər dedikdə, şəxsiyyətin hərtərəfli və mükəmməl inkişafı nöqteyi-nəzərindən fiziki cəhətdən sağlam, fəal yaradıcı gəncliyin formalaşdırılması, yaradıcı istirahətin təşkili nəzərdə tutulur. Əlil insanların cəmiyyətə inteqrasiya olunması, yetim uşaqların, sosial köməyə və müdafiəyə ehtiyacı olan şəxslərin cəmiyyətdən uzaqlaşmasının qarşısının alınması, idmançıların "Fair Play" ("Ədalətli oyunlar") prinsiplərinə və olimpizmin digər humanist ideallarına xidmət etməsinə yönləndirilməsi Olimpiya Oyunlarının müqəddəs vəzifələrindəndir.

Müasir olimpizm antik olimpizmdən bir də dinə münasibətinə görə fərqlənir. Antik Olimpiya Oyunlarında Zevsin şərəfinə mərasimlər təşkil olunurdu. Müasir Olimpiya Oyunları isə dini mərasimlərdən uzaq bir tədbirdir və odun Olimp dağından götürülməsi tamamilə rəmzi məna ifadə edir. Olimpiya Oyunlarının proqramı ildən-ilə yenilənir. Proqramın yenilənməsinə səbəb iqtisadi və siyasi amillərin təsiri altında baş verir və müasir Olimpiya Oyunları dünya ictimaiyyətinin inkişafına uyğun olaraq təkmilləşir. Yeni zaman yeni insan formalaşdırır. Yeni Avropa mədəniyyətinin ruhu, onun dəyərli oriyentasiyası olimpizm ideyalarının yenidən populyarlıq qazanmasında böyük rol oynadı. Şəxsiyyətin azadlığı və suverenliyi, onun dəyərliliyi, təşəbbüskarlığı yeni ideya və psixologiyanın əsasını qoydu. Hüquqi dövlət yaradıldı, vətəndaş cəmiyyəti, yeni tipli sosial quruluş formalaşdı. Həyatı tənzimləyən hüquqi və əxlaqi normaların mənası artdı. Belə bir zamanda olimpizm ideyasının bərpası labüd və qaçılmaz idi.

## Şəxsiyyətin ahəngdar inkişafında "spartalı" idealı bu gün realdırmı?

Olimpizmin əsas prinsiplərindən biri də idmanla incəsənətin biri-biri ilə əlaqələndirilməsidir. Qədim yunanlar təlim və tərbiyə prosesində Spartalı modelindən çox istfadə edirdilər. Bəs gəlin görək, spartalı kimdir və o hansı kefiyyətlərə malik olmalıdır? Qısa sözlə, spartalı idman və incəsənət fədaisidir, desək yanılmarıq. Spartalı ilk növbədə daima öz üzərində işləyən, mənəvi və fiziki kamilliyə can atan bir fərddir. Spartalının "Özünə inan və arzu etdiyin qədər çalış" şüarı müdrik məşhur kəlamlara əsaslanır: "Öz-özünü dərk et" (lat.: "Nosce te ipsum"), "Öz-özünə qalib gəl" (Lat.:"Te ipsum vincere"). İdman və incəsənət aləmində nəcib hərəkətlər nümayiş etdirən spartalı idman yarışlarında və bədii müsabiqələrdə cəngavərlərə məxsus kişilik, iradə, dözüm kimi keyfiyyətlər nümayiş etdirərək özü üçün maksimum nəticə əldə etməyə can atır. Lakin o bütün bunları kubok və digər mükafatlar, rəqib üzərində qələbə üçün yox, hər şeydən əvvəl, özü özünə qalib gəlmək qabiliyyətini nümayiş etdirmək üçün edir.

Spartalı daima gözəllik və nəciblik qanunları çərçivəsində hərəkət etməyə can atır. Onun üçün hərəkətlərin və əxlaqın gözəlliyi istənilən qələbədən daha üstündür. Spartalı qalib və məğlub olmasından asılı olmayaraq, rəqiblərinə, hakimlərə və digər rəsmi şəxslərə, tamaşaçılara hörmətlə yanaşır, qələbədən sonra özünü təvəzökar aparır, rəqib üzərində öz üstünlüyünü qabartmır, gündəlik həyatda insanlara və təbiətə münasibətdə spartalı "Xeyirxah ol" sözlərini özü üçün şüar seçir. Beləliklə, şəxsiyyətin kompleks inkişafının Sparta modeli insanın kamilləşmə, öz müqəddaratını müəyyənetmə prosesini nəzərdə tutur. Eyni zamanda insanın iradə, intellekt və digər mənəvi-əxlaqi kefiyyətlərinin vəhdəti rolunda çıxış edir. Bu, hər şeydən əvvəl özünü yaradıcı fəaliyyətin müxtəlif sahələrində, o cümlədən idman və incəsənət sahəsində nümayiş etdirir. Spartalı onu əhatə edən insanlarla və təbiətlə münasibətdə harmoniya axtarışındadır.

Tarixə nəzər salsaq görərik ki, qədim yunan filosofu Pifaqor Olimpiya Oyunlarının qalibi olmaqla bərabər, həm də məşqçi kimi fəaliyyət göstərib. Digər məşhur yunan filosofu Platon İstmiya Oyunlarında güləşçilərin yarışında uğurla çıxış edərək qələbəyə imza atıb. Qədim yunan atleti Milon isə Olimpiya Oyunlarının qalibi olmaqla yanaşı, təbiət haqqında fəlsəfi traktatın müəllifidir. Bundan başqa, müasir dövrdə öz fəaliyyətlərində idmanı elm, incəsənət sahələri ilə uğurla birləşdirən görkəmli şəxsiyyətlər az deyil. Xatırladaq ki, Vinaus (ABŞ) 1900 və 1908-ci illərdə keçirilən Olimpiya Oyunlarında atıcılıq üzrə çempion adına almaqla bərabər, 1912-ci ildə təşkil edilən bədii müsabiqələrin birində qızıl medalın sahibi olmuşdu. Afina-1896 Olimpiya Oyunlarının üzgüçülük üzrə çempionu Hayoş (Macarıstan) 1924-cü ildə memarlıq fəaliyyətinə görə gümüş medalla təltif olunmuşdu. 1957-ci ildə Parisdə idmana həsr edilmiş bədii sərgidə əsərlərini nümayiş etdirən 100 rəssam və heykəltaraşdan 25-i öz taleyini birbaşa idmanla bağlayan insanlar olub.

## Olimpizm həyat fəlsəfəsidir

İdman həyatın bötüvlüyü, gülüş, sevinc, həyəcan deməkdir. İdman tərbiyə sahəsində mühüm yer tutur və fiziki tərbiyənin ayrılmaz hissəsi kimi ictimai həyatın və fəaliyyətin vacib elementinə çevrilir. İdman yaxşıların yaxşısı olmaq, güclü bədənə və iradəyə sahib olmaq, güclü emosiyaların və hədsiz sevincin burulğanında, dostluq əlaqələrində özünü tapmaqdır. Müasir olimpizmin banisi Pyer de Kubertenini fikrinə görə, islahatlar olimpizmin tərbiyə dəyərini daim özündə əks etdirməlidir. Dahi insan olimpizmi tərbiyə proqramının bir aləti hesab edirdi. Bəs olimpizm hansı dəyərlərə malikdir? Əsası odur ki, olimpizm idealları cəmiyyət, xüsusilə gənclər tərəfindən geniş və hərtərəfli qəbul olunur və zaman keçdikcə öz əhəmiyyətini itirmir. Onun üçün də Olimpiya Oyunları həmişə öz universiallığını qoruyub saxlayır. Oyunların universiallığı əsas iki ideyaya əsaslanır: sülh və "fair play" (ədalətlilik prinsipi). Bundan sonra dostluq, qardaşlıq, ədalətlilik kimi prinsiplər gəlir.

Müasir Olimpiya Hərəkatı böyük sosial məna daşıyır və dünyanın müxtəlif ölkələrinin idman təşkilatlarını özündə birləşdirir. Beynəlxalq Olimpiya Hərəkatı irqindən, siyasi və dini baxışlarından asılı olmayaraq dünyanın hər yerindən milyonlarla gənc idmançını bir araya toplayır. Yarışların dinc və sülh şəraitində keçməsi, beynəlxalq əməkdaşlıq, xalqlar arasında qarşılıqlı anlaşma və dostluq özünü konkret olaraq Olimpiya Oyunlarında nümayiş etdirir. Uşaq və gənclərin olimpizm dəyərləri və idealları ruhunda tərbiyə olunması təhsil sistemində, gənc həslin tərbiyə və təhsil prosesində vacib yer tutur. Çünki olimpizm idelları bəşəriyyətə, humanizmə xidmət edir. Qloballaşma dövründə uşaq və gənclərin praqmatizm, nihilizm və digər mənfi cərəyanların təsiri altına düşdüyü bir vaxtda bu amil çox önəmli və faydalıdır. Mədəniyyətin bir forması olan bədən tərbiyəsinin özünün predmeti, vəzifələri və nəticəsi vardır. Bədən tərbiyəsi insanların xüsusi fəaliyyət sahəsi qismində çıxış edir. Yəni, idman bilavasitə şəxsiyyətin və onun təmsil olunduğu cəmiyyətin səviyyəsini ortaya qoyur. Beləliklə, bədən tərbiyəsi mürəkkəb fiziki və mənəvi təkamülü özündə birləşdirir. Hansı ki, burada cəmiyyətin maddi və mənəvi səviyyəsi özünü göstərir. Tədqiqatçıların əksəriyyəti idman və bədən tərbiyəsinə insanın öz bədənini təkmilləşdirmə vasitəsi kimi baxırlar. Lakin bu, bir faktdır ki, idman insanların həyat tərzinin ifadəçisidir. Müəyyən mənada idman ümumbəşəri mədəniyyətin tərkib hissəsi kimi dünyagörüşü, siyasi, iqtisadi və əxlaqi mədəniyyətin ilkin amili kimi özünü təsdiq edir. Maddi, mənəvi və fiziki mədəniyyət bir-biri ilə sıx əlaqədə şəxsiyyətin ahəngdar inkişafını təmin edir və sosiumun həyat tərzini müəyyən edir. Təəssüf ki, müasir dövrümüzdə hələ də idman və bədən tərbiyəsi mövzusuna münasibət birmənalıdır. Çoxları düşünürlər ki, bədən tərbiyəsi insanın yalnız hərəkətin fəallığını artırmaq üçündür. Olimpiya Oyunlarının zəngin tarixi və təcrübəsi bu fikrin yanlış olduğunu bir daha təsdiqləyir. Yüzilliklər, minilliklər, tarix, təcrübə onu deməyə əsas verir ki, bədən tərbiyəsi insanın mədəni fəaliyyətinin bir sahəsidir.

Olimpiya Hərəkatı tarixçilərin və mədəniyyət xadimlərinin dəfələrlə müraciət etdiyi və araşdırma apardığı sahələrdən biridir. Amma çox zaman bu məsələyə münasibət birtərəfli olub. Demək olar ki, Olimpiya Hərəkatının sosial mədəni statusu barədə aparılan tədqiqatların yaşı o qədər də çox deyil. Biz ölkə və xarici ədəbiyyatda idman və bədən tərbiyəsinin müasir insanın və cəmiyyətin həyatında rolu, idmanın müasir mədəni dəyərlər sistemində rolu, eləcə də onun milli şüurla əlaqəsi, insanı stressdən çıxardan və özünəinamını artıran bu vasitə olduğu haqda yetərincə məlumatlanmışıq. Olimpiya Xartiyasında olimpizm haqda deyilir: "Olimpizm bədənin, ruhun və iradənin vəhdətini təmin edərək onu yüksəklərə qaldıran bir həyat fəlsəfəsidir".

İdman insanların həyat tərzinin bir forması kimi mühüm sosial dəyərlərə malikdir. İdman nəinki insanın fiziki cəhətdən güclü və sağlam olmasında, həm də onun dünyagörüşünün formalaşmasında, siyasi, əxlaqi, iqtisadi sahələrdə özünü təsdiq etməsində tapmasında əhəmiyyətli rol oynayır.

Ölkəmiz beynəlxalq idman və Olimpiya Hərəkatının fəal üzvlərindən biridir. Bugünlərdə Azərbaycanın idman ictimaiyyəti Milli Olimpiya Komitəsinin (MOK) yaradılmasının 25 illik yubileyini böyük təntənə ilə qeyd etdi. Müasir Olimpiya Hərəkatının, müasir Olimpiya Oyunlarının tarixi ilə müqayisədə 25 il kiçik zaman kəsiyidir. Bu müddət ərzində beynəlxalq idman və Olimpiya Hərəkatında özünəməxsus mövqe tutmağı bacarmaq hər kəsə müyəssər olmur. Fərəhlidir ki, həmin bu qısa zaman kəsiyində Azərbaycan idmançıları Olimpiya Oyunlarında dövlətimizin idman şərəfini ləyaqətlə qoruyub və onun şan-şöhrətini yüksəklərə qaldırıblar. Milli Olimpiya Komitəsi beynəlxalq aləmdə böyük nüfuz qazanıb, öz fəaliyyəti və əldə etdiyi nəticələrlə daim fərqlənib. MOK beynəlxalq və qitə Olimpiya təşkilatlarında respublikamızı layiqincə təmsil edir, idmançılarımızın Olimpiya oyunlarında iştirakını təmin edir. İdmançılarımızın Olimpiya Oyunlarındakı nəticələri, Olimpiya Hərəkatındakı fəal iştirakı ölkənin təkcə idman sahəsindəki gücü kimi qəbul olunmur, həm də onun dünya birliyində yeri, mədəni və iqtisadi inkişafının yüksək səviyyəsi kimi qiymətləndirilir. Qısa sözlə, idmanın inkişafı ölkələrin ümumi inkişafının göstəricisidir. Respublikamızda idman sahəsində əldə olunmuş nailiyyətlər, idmançılarımızın ən mötəbər beynəlxalq idman yarışlarında qazandığı uğurlar Gənclər, İdman və Turizm Nazirlyi, Milli Olimpiya Komitəsi və ölkəmizdə idman növləri üzrə fəaliyyət göstərən federasiya, klub və cəmiyyətlərin sıx əməkdaşlığı sayəsində mümkün olmuşdur. Azərbaycanın ictimai həyatında mühüm amillərdən biri olan bədən tərbiyəsi və idmanın günü-gündən tərəqqisi və inkişafı üçün nəzərdə tutulan proqram və lahiyələr uğurla həyata keçirilir. Çünki sağlamlıq əsas şərtdir və sağlam millət, sağlam cəmiyyət deməkdir.

***Səadət Hakıyeva***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*

# Millimiz seçmə mərhələni 10 xalla başa vurdu

***DÇ-2018-in seçmə mərhələsinin Avropa zonasında sonuncu turun oyunları keçirilib. Azərbaycan millisinin yer aldığı C qrupunda da son görüşlər olub. İlk iki yerin sahibi əvvəlki turlarda müəyyənləşdiyindən X tur formal xarakter daşıyıb. Robert Prosineçkinin yetirmələri qrupdakı son matçını səfərdə keçirib. Yığmamız Almaniya millisi ilə qarşılaşıb.***

### DÇ-2018-in seçmə mərhələsi
**Avropa zonası**

**C qrupu**

**Almaniya - Azərbaycan - 5:1**

**Qollar:** Qoretzka, 9, 66, Vaqner, 55, Rüdiger, 64, Emre Can, 81 - Ramil Şeydayev, 34.

**Hakimlər:** Andris Treymanis, Harald Qudermanis, Aleksey Spasyonnikov, Aleksandr Qolubev (hamısı Latviya).

***8 oktyabr. Kayzerslautern. Frits Valter stadionu.***

Oyuna almanlar hücumlarla başlayıblar. Bunun nəticəsində meydan sahibləri hesabı açıblar. Matçın 9-cu dəqiqəsində künc zərbəsindən ötürülən topu Qoretzka dabanla qapıdan keçirib. Qoldan sonra hücumlar qurmağa çalışan millimiz topu özündə saxlamağa başlayıb. Qol vəziyyətlərinin birində təmsilçimiz hesabı bərabərləşdirib. Matçın 34-cü dəqiqəsində əks-hücum zamanı komanda yoldaşından ötürmə alan Ramil Şeydayev rəqib müdafiəçiləri geridə qoyaraq qapını dəqiq nişan alıb - 1:1. Bu qol Bundestimin uğurlu seriyasını qırıb. Belə ki, hücumçumuzun fərqlənməsi ilə almanları 7 oyunluq evdə qol buraxmamaq seriyası başa çatıb.

Fasilədən sonra hücuma atılan Almaniya millisi rəqib qapısından daha 4 top keçirərək böyükhesablı qələbəyə sevinib - 5:1.

Beləliklə, Azərbaycan milli komandası dünya çempionatının seçmə mərhələsində növbəti çıxışını başa vurub. Bu, millimiz üçün mundiala düşmək mübarizəsində 6-cı seçmə mərhələ olub. Avropa çempionatının seçmə mərhələsində də bu sayda çıxış etdiyimizi nəzərə alsaq, ümumilikdə 12-ci seçmə mərhələni başa vurduq.

| | O | Q | H | M | T | X |
|---|---|---|---|---|---|---|
| *1. Almaniya* | 10 | 10 | 0 | 0 | 43-4 | 30 |
| *2. Ş.İrlandiya* | 10 | 6 | 1 | 3 | 17-6 | 19 |
| *3. Çexiya* | 10 | 4 | 3 | 3 | 17-10 | 15 |
| *4. Norveç* | 10 | 4 | 1 | 5 | 17-16 | 13 |
| *5. Azərbaycan* | 10 | 3 | 1 | 6 | 10-19 | 10 |
| *6. San Marino* | 10 | 0 | 0 | 10 | 2-51 | 0 |



Yığmamız təkcə dünya yox, bütün seçmə mərhələlər tarixində ən çox xalı məhz bu dəfə toplayıb. Bu, 10 oyuna elə bu sayda xaldır. Ancaq bir şeyi də nəzərə alaq ki, Robert Prosineçkinin yetirmələri uğurla start götürərək 3 oyuna 7 xal toplasa da, sonradan 7 matçın 6-da uduzub və yalnız 1-də qələbə sayəsində 3 xal toplayıb.

Qazanılan qələbə də bütün seçmə mərhələlər üzrə rekorddur. Vurulan 10 qol mundial üçün ən yaxşı göstəricidirsə, qitə üzrə EURO-2012-nin təkrarıdır.

***Oyundan sonra***

***Robert Prosineçki (Azərbaycan millisinin baş məşqçisi):*** “Bu hesabdan sonra nəsə demək çətindir. Buna baxmayaraq, ilk hissədə yaxşı oynadıq, qol vəziyyətlərimiz oldu. Onlardan 1-ni qolla tamamladıq. İkinci hissədə rəqib keyfiyyətini göstərdi. Hesab 6:3 ola bilərdi. Açıq futbol getdi. Rəqib layiqli qələbə qazandı. Ümumilikdə, komandadan razı qaldım. Çətin qrupda, güclü rəqiblərə qarşı oynadıq. Nəticə bizi qane etməsə də, yaxşı çıxış etdik. Şimali İrlandiya yığması ilə matçı nəzərə alsaq, daha çox xal toplamalı idik. Belə qrupda 10 xal toplamaq asan deyil. Bundan da çox ola bilərdi. Komandama yaxşı qiymət verirəm”.

***Yoahim Löv (Almaniya millisinin baş məşqçisi):*** “Oyunçularımı təbrik edirəm. 10 qələbə göstərir ki, həmişə konsentrasiyanı yüksək səviyyədə saxlayıblar. Hər komanda bunu bacarmaz. Bizim üçün rəqibin fərqi yoxdur. İlk hissədə tam yaxşı oynamadıq, yavaş hərəkət etdik. Texniki səhvlərimiz oldu. Topu tez-tez öz qapıçımıza göndərirdik. Hamı bizdən yaxşı çıxış gözləyir. Ancaq gənclərə vaxt lazımdır. İkinci hissədə istədiyimizi edə bildik. Elə oynadıq ki, qollar gəlməli idi. İlk qoldan sonra müdafiəçilər ləng idilər. Azərbaycan hücuma çıxa bilirdi və bizim oyunçular ağır hərəkət edirdilər. Qol vurmaq üçün tələsdik. İkinci hissədə bu problemi düzəltdik. Arxada yaxşı oynayanda, öndəkilər topu daha yaxşı qəbul edirlər”.



# Velosiped üzrə ölkə çempionatı keçirilib

***Azərbaycan Velosiped İdmanı Federasiyasının təqvim planına əsasən, Respublika Velotrekində velosiped idmanının trek növü üzrə ölkə çempionatı keçirilib. 2 gün davam edən yarışda müxtəlif klub və cəmiyyətlərin 70-ə yaxın idmançısı iştirak edib.***

Yarış iştirakçıları 500 m, 2 km və 3 km məsafəyə fərdi ötüşmə, həmçinin skretç növündə mübarizə aparıblar. Qızlar arasında Ayan Xankişiyeva həm 500 m, həm də 2 km məsafəyə fərdi ötüşmədə bütün rəqiblərini qabaqlamaqla fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

U-15 yaş kateqoriyasında çıxış edən Nikita Sitov 500 m və 2 km məsafələrə fərdi ötüşmədə birinci olsa da, 7 km məsafəyə skretç növündə Kamran Mirzəxanova güzəştə gedərək 2-ci yeri tutub. U-17 kateqoriyasında Nəcəf Bağırov 500 m və 2 km məsafələrə fərdi, 7 km məsafəyə skretç yarışında hamıdan güclü olub. Gənclər arasında İvan Orlov 500 m və 3 km-ə fərdi, 10 km məsafəyə isə skretç yarışında Azərbaycan çempionu adını qazanıb.

Mükafatalayiq yerlər tutmuş velosipedçilər diplom və hədiyyələr, həmçinin pul mükafatı ilə təltif ediliblər.

Yarışdan sonra yığma komandanın baş məşqçisi Aleksandr Averin öz fikirlərini bölüşüb: “Artıq mövsümə yekun vururuq və bu bizim cari ildə keçirdiyimiz son yarışdır. Azərbaycan çempionatının maraqlı edən daha bir məqam yarışın nəticələrinin Beynəlxalq Velosipedçilər İttifaqına (UCİ) göndərilməsidir. Yəni mükafatalayiq yerlər tutmuş idmançılar bununla öz reytinqlərini xeyli artıracaqlar və bu da beynəlxalq yarışlarda iştirak baxımından olduqca böyük əhəmiyyət daşıyır. Elə bunu nəzərə almaqla idmançıların bu yarışa necə önəm verdiyini hiss etmək çətin deyil”.

# XI Respublika Oyunlarının ağırlıqqaldırma yarışları başa çatıb




Xaçmaz Olimpiya İdman Kompleksində 2005-2006-cı illər təvəllüdlü oğlan və qızlar arasında XI Respublika Oyunlarının ağırlıqqaldırma üzrə yarışları keçirilib. Birincilikdə bütün idman məktəbləri, cəmiyyət və klubların üzvləri çıxış ediblər. Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə keçirilən yarışda Sumqayıt, Qazax, Neftçala, Goranboy, Qobustan, Qax, İsmayıllı, Xırdalan, Lənkəran və digər şəhər-rayonları təmsil edən 100-dən çox idmançı medallar uğrunda mübarizə aparıb.

Yarışın keçirilməsində əsas məqsəd ölkənin ən güclü yeniyetmə atletlərinin müəyyənləşdirilməsi, ağırlıqqaldırma idman növünün təbliğ və inkişaf etdirilməsi, idmançıların ustalıq səviyyəsinin artırılması, həmçinin qarşıdakı beynəlxalq yarışlara hazırlıq və seçimdir.

Birincilikdə 10 çəki dərəcəsi üzrə qaliblər müəyyənləşib. Fəxri kürsüdə yer alan idmançılar Gənclər və İdman Nazirliyinin diplom və medalları ilə təltif olunublar.

## Regional birincilik davam edir

Azərbaycan Cüdo Federasiyasının dəstəyi ilə keçirilən yeniyetmələr arasında region birinciliyi davam edir. Zona yarışları bu dəfə Zaqatalada təşkil olunub. Şimal-Qərb bölgə çempionatında Qax, Zaqatala, Şəki, Balakən və Mingəçevirdən 200-dən çox yeniyetmə cüdoçu mübarizə aparıb.

Qaliblər Azərbaycan Cüdo Federasiyasının diplom, medal və qiymətli hədiyyələri ilə təltif olunublar.

## Dünya çempionatında uğurlu nəticə

Kazanda keçirilən uşu üzrə 14-cü dünya çempionatına yekun vurulub. Komandamız yarışda üç idmançı ilə təmsil olunub. Təmsilçilərimiz dünya çempionatını iki medalla başa vurublar. 48 kq çəki dərəcəsində mübarizə aparan Orxan Hətəmov Türkiyə və Şri-Lanka idmançılarına qalib gələrək finala vəsiqə qazanıb. Həlledici döyüşdə Çin təmsilçisinə məğlub olan Orxan Hətəmov çempionatda gümüş medala sahib çıxıb. Dünya çempionatında 65 kq çəki dərəcəsində mübarizə aparan Ruslan Pirəliyev Gürcüstan, Fransa və İordaniya idmançılarını məğlub edib. Lakin ayağından zədə alan təmsilçimiz çinli idmançı ilə yarımfinal döyüşünə çıxa bilməyərək bürünc medalla kifayətlənməli olub.

Rafael Tarverdiyev (60 kq) isə yarımfinalda Rusiya idmançısına məğlub olaraq mübarizəni dayandırıb.

## Kikboksçumuzdan növbəti qələbə

Azərbaycan Kikboksinq Federasiyasının üzvü, bir sıra beynəlxalq yarışların qalibi, peşəkar kikboksçu Xəyal Əhmədov Almaniyanın Bohum şəhərində növbəti döyüşünü keçirib.

MMA (qarışıq döyüş növləri) və K-1 versiyaları üzrə beynəlxalq kikboksinq turnirində Azərbaycanı təmsil edən “Tank” ləqəbli Xəyal Əhmədov Kevin Keitke ilə mübarizə aparıb. Təmsilçimiz gərgin keçən döyüşdə rəqibinə qalib gələrək çempion adını qazanıb.

Xatırladaq ki, Xəyal Əhmədov 2016-cı ilin noyabr ayında ermənistanlı idmançını Almaniyada nokauta salmaqla qələbə qazanmışdı.

## Bolderinqçilər açıq ölkə çempionatına hazırlaşırlar

Oktyabrın 28-29-da Azərbaycan Hava və Ekstremal İdman Növləri Federasiyasına (FAIREX) məxsus “Clim Baku” İdman Dırmanması Kompleksində idman dırmanmasının bolderinq növü üzrə açıq ölkə çempionatı keçiriləcək.



Yarış Azərbaycanda dırmanma idman növünü geniş yaymaq, gəncləri və yeniyetmələri bu idman növünə cəlb etmək məqsədi daşıyır.

Çempionatda 14 yaşdan yuxarı idmançılar arasında şəxsi və komanda üzrə yarışlar keçiriləcək. Komandanın tərkibində üç oğlan və bir qız olmalıdır.

Yarışın qalibləri FAIREX tərəfindən hədiyyələr və Gənclər və İdman Nazirliyinin müvafiq diplomları ilə mükafatlandırılacaqlar.

# *Gələn il ölkəmizdə dünya çempionatı keçiriləcək*

Buyaxınlarda Yaponiyanın paytaxtı Tokio şəhərində kyokuşinkay karate idman növü üzrə beynəlxalq seminar keçirilib. Seminarda idmançıların taktiki və texniki hazırlıq səviyyəsi yoxlanılıb. Seminarla yanaşı, həmin ərəfədə iclas da təşkil edilib. İclasın yekununda qərara alınıb ki, bu növ üzrə 5-ci dünya çempionatı gələn il paytaxtımızda keçirilsin. Bundan başqa, Beynəlxalq Kyokuşinkay Karate Federasiyası Beynəlxalq Seyşin Kyokşin Karate Təşkilatı arasında ittifaq bağlanılıb. Qeyd edək ki, bu ittifaqa Teyub Əzizov rəhbərlik edir.

Beynəlxalq Kyokuşinkay Karate Federasiyasınadan verilən məlumata görə, gələn bir sıra tədbirlərin keçirilməsi nəzərdə tutulub. Belə ki, növbəti ildə yığma komandamızın Yaponiyada keçiriləcək dünya kubokunda iştirakı nəzərdə tutulub. Bununla yanaşı, Beynəlxalq Təşkilatın direktoru kanço Şokey Motsuy tərəfindən 2018-ci ildə sentyabr ayında Teyub Əzizovla görüşü nəzərdə tutulub.



# “İnsanda inam və istək hər şeydən üstündür”

Son dövrlərdə Azərbaycan idmanında uğurlar bir-birini əvəzləyir. İdmana və idmançılara göstərilən dövlət qayğısı nəticəsində atletlərimiz beynəlxalq yarışlarda mükafatalayiq nəticələr göstərirlər. Həmin idmançılar arasında qeyri-Olimpiya növləri üzrə çıxış edən təmsilçilərimizin də adları var. Ölkəmizi beynəlxalq yarışda uğurla təmsil edən atletlərdən biri də Fərqanə Saxrayevadır. Xanım idmançımız ötən ayın 21-25-də Tbilisidə keçirilən budo döyüş növləri üzrə dünya çempionatında ona bəslənilən ümidləri doğruldub. Belə ki, o, 60 kq çəki dərəcəsində çıxış edərək bütün rəqiblərinə qalib gəlib. Bununla bağlı daha ətraflı məlumat almaq üçün qalib idmançı və onun məşqçisi Qadir Cəfərovla redaksiyamızda görüşdük. Fərqanə Saxrayeva Tbilisidə əldə etdiyi çempionluq barəsində bunları dedi: “Uzun müddət idi ki, bu yarışa hazırlaşırdım. Bilirdim ki, qalibiyyət üçün heçnə asan olmayacaq. Rəqiblərim isə çox güclü idi. Lakin insanda inam və istək hər şeydən üstündür. Mənə göstərilən etimadı doğruldub, çempion adını qazandım. Buna görə çox xoşbəxtəm”.




Fərqanə Saxrayevanın uğur qazanmasında onun məşqçisi Qadir Cəfərovunda rolu az olmayıb. Məşqçi ilə söhbət zamanı öyrəndik ki, onun rəhbərliyi altında bir sıra perspektivli idmançılar yetişib. “Budo nəinki ölkəmizdə, hətta dünyanın bir sıra ölkələrində populyarlıq qazanıb. Son dövrlərdə keçirilən yarışlarda güclü rəqabət hökm sürür. Azərbaycan idmançıları da dünyada güclü rəqiblərdən sayılırlar. Fərqanə də həmin idmançılardan biridir. Mən inanırdım ki, Tbilisidə keçirilən yarışda o ümidləri doğruldacaq. Onun dünya çempionu olması Azərbaycanda budonun inkişafından xəbər verir”, - deyə Qadir Cəfərov bildirdi.

Olimpiya dünyası

Baş redaktorun müavini: A.B.Şirəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
H/H AZ79IBAZ38090019449333849204
M/H 0137010002944
KOD 805250
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 20 qəpikdir.
Qəzet “Olimpiya dünyası”nın kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı və cümə günləri 6150 nüsxə ilə çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən “Olimpiya dünyası”na istinad etmək zəruridir.

E-mail: olimpiya_dunyasi@mail.ru
Ünvan: Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-90-54; 564-74-19